İPƏK YOLU, No.2, 2022, səh.161-166

# BAKI NEFTİNİN İKİNCİ DÜNYA MÜHARİBƏSİNDƏ ƏLƏBƏYƏ TÖHFƏSİ

**Qabil Əliyev, Əminət Musayeva**

Azərbaycan Universiteti, Bakı, Azərbaycan
e-mail: qabil-aliyev@mail.ru, Eminetmusayeva725@gmail.com

**Xülasə.** Məqalədə Sovet İttifaqının nasist Almaniyası və müttəfiqləri üzərində qələbəsində Bakı neftinin rolu, arxa cəbhədə Azərbaycan neftçilərinin fədakar əməyi, Bakıda neft mədənlərinin vəziyyəti, müharibənin son mərhələsində neft istehsalatında yaranmış çətinliklər araşdırılmışdır. Bakı neftinin qələbəyə böyük töhfəsi konkret faktlarla göstərilmişdir.

**Açar sözlər:** Bakı nefti, Azərbaycan neftçiləri, yüksək oktanlı aviasiya benzini, neft məhsulları, "İkinci Bakı" yaradılması.

**THE CONTRIBUTION OF BAKU OIL TO THE VICTORY IN WORLD WAR II**

**Gabil Aliyev, Aminat Musaeva**
*Azerbaijan University, Baku, Azerbaijan*

**Abstract:** The article explores the role Baku oil in the great victory of the Soviet Union over Nazi Germany and its satellites, the selfless work of Azer-baijani oil workers in the rear, the state of oil fields in Absheron, difficulties with oil production at the end of the war. It was shown the contribution of Baku oil to the victory.
**Keywords:** Baku oil, Azerbaijani oil workers, high-octane gasoline, oil products, the creation of the "Second Baku"

**ВКЛАД БАКИНСКОЙ НЕФТИ В ПОБЕДУ ВО ВТОРОЙ МИРОВОЙ ВОЙНЕ**

**Габиль Алиев, Аминат Мусаева**
*Университет Азербайджан, Баку, Азербайджан*

**Резюме:** В статье исследуется роль Бакинской нефти в великой победе Советского Союза над нацистской Германией и ее сателлитами, само-отверженный труд азербайджанских нефтяни-ков в тылу, состояние нефтяных месторож-дений в Абшероне, трудности с добычей нефти в конце войны. Показан вклад бакинской нефти в победу.
**Ключевые слова.** Бакинская нефть, Азербай-джанские нефтяники, высокооктановый бен-зин, нефтепродукты, создание «Второго Баку».

## 1. Giriş

1941-1945-ci illər müharibəsində nasist Almaniyası üzərində böyük qələbədə Bakı nefti misilsiz rol oynamışdır. Motorlar müharibəsi olan bu qanlı savaşda Azərbaycan neftçiləri döyüşən ordunu, tankları, təyyarələri fasiləsiz şəkildə yanacaqla təmin etməklə qələbəyə öz töhfələrini vermişlər. Müharibə dövründə Sovet İttifaqında hasil olunan neftin 75 faizə qədərini, Abşeron yarımadasının payına düşürdü. Aviasiya benzininin 90 faizə qədərini Bakı neftayırma zavodları istehsal etmişdi [1, s.17]. Sovet hərbi dəniz donanmasının yüksək keyfiyyətli mazutla təchizi də bu müəssisələrin fəaliyyəti sayəsində mümkün olmuşdu. Sovet neft sənayesinə və iqtisadiyyatının planlaşdırılmasına uzun müddət rəhbərlik etmiş Nikolay Baybakov faşizm üzərində qələbədə Azərbaycanın xidmətləri haqqında demişdir: "Faşizm üzərində qələbə üçün Azərbaycanın etdiklərini bəlkə də heç bir respublika etməmişdir. 1941-cı ildə SSRİ-də çıxarılan 33 milyon ton neftin 23,5 milyon tonu Azərbaycanın payına düşürdü" [2, s.9].

Ulu öndər Heydər Əliyev 2003-cü il fevralın 25-də "Şərq-Qərb enerji dəhlizi reallıqdır" mövzusunda Vaşinqtonda keçirilən beynəlxalq konfransda ABŞ rəsmi nümayəndələri qarşısında xüsusi vurğulamışdır ki, "Əgər Azərbyacan nefti olmasaydı, İkinci dünya müharibəsində SSRİ-nin İngiltərə və Amerika koalisiyası ilə birlikdə alman faşizmi üzərində qalib gəlməsi mümkün olmazdı" [3, s.25-26].

1941-1945-ci illər müharibəsində qazanılmış qələbədə Bakı nefti həlledici rol oynamışdı. O illər ərzində Azərbaycanda 75 milyon ton neft çıxarılmışdı [8,s.460; 12, c.13]. Bu da müharibə dövründə SSRİ-dəki hasil olunan 110 milyon ton neftin dörddə üçündən çox idi. Cəbhədə hər 5 təyyarə və tankdan 4-ü Azərbaycandan göndərilən yanacaqla işləyirdi. Hitler Qafqaza hücuma başlayanda feldmarşal Manşteynə demişdi: "Biz mütləq Bakını tutmalıyıq. Əgər biz Bakı neftini ələ keçirməsək müharibəni uduzacağıq" [2, s.9].

İkinci dünya müharibəsi dövründə Sovet İttifaqının bütün neft məhsulları ilə: benzin, ağ neft, mazut, sürtkü yağları, xüsusən hərbi təyyarələrin yüksək oktanlı benzinlə təminatının çox hissəsi Azərbaycanın hesabına idi. O illərdə bu məhsullara, xüsusən də yüksək keyfiyyətli aviasiya benzininə böyük tələbat var idi. Məhz yüksək oktanlı benzin faşist asları ilə hava döyüşlərində üstünlük qazanmağa imkan verirdi. Bakı neftayırma zavodlarında istehsal olunan belə benzin növü təyyarənin sürətini artırmağa, həmçinin daha qısa zaman kəsiyində havaya qaldırmağa şərait yaratdı. 1941-ci ilin yayında görkəmli kimyaçı alim Yusif Məmmədəliyevin başçılığı ilə bir qrup mütəxəssis 28 gün laboratoriyada fasiləsiz çalışaraq neft-kimya elmində misilsiz bir elmi kəşfə imza atdılar – yüksək oktanlı aviasiya yanacağı əldə etdilər [1, s.29] və bu qiymətli məhsulun kütləvi istehsalını qaydaya saldılar.

Döyüş cəbhələrində faşizm üzərində qələbənin qazanılmasında xüsusi xidmətləri olan sərkərdələr – Sovet İttifaqı marşalları Georgi Jukov və Konstantin Rokossovski müharibə ilə bağlı xatirələrində həmişə bildirirdilər ki, Azərbaycan neftçiləri cəbhəni fasiləsiz yanacaqla təmin etməklə qələbəyə həlledici təsir göstərmişlər. Marşal G.Jukov yazmışdı: "Bakı neftçiləri cəbhəyə və ölkəyə vətənimizin müdafiəsi üçün, düşmən üzərində tezliklə qələbə üçün nə qədər lazım idi, o qədər də yanacaq vermişdilər". Marşal K.Rokossovski də Bakı neftçilərinin əməyini yüksək qiymətləndirmişdi: "Düşmənə vurulan hər bir zərbədə Bakı neftçilərinin payı vardır". Marşal A.A.Qreçko da Azərbaycandan cəbhəyə fasizləsiz olaraq benzin, silah, döyüş sursatı və ərzaq qatarlarının gəlməsi haqqında maraqlı faktları qeyd etmişdi [2, s.9].

Bakının Böyük Vətən müharibəsində qələbədə misilsiz rolunu sovet ordusunun sərkərdələri - Sovet İttifaqı marşalları R.Y.Malinovski, F.İ.Tolbuxin və başqaları da dəfələrlə qeyd etmişlər. Bakı neftçilərinin qəhrəman əməyi Sovet ordusunda yüksək qiymətləndirildi. Cəbhə komandirlərindən, əsgərlərdən, general və admirallardan Azərbaycan Mərkəzi Komitəsinə, Bakı Komitəsinə məktub və teleqramlar gəlirdi [2, s.9].

Müharibə başladığı vaxtdan faşizmə qarşı mübarizədə Sovet xalqının başlıca şüarı "Hər şey cəbhə üçün, hər şey qələbə üçün!" olmuşdu. Azərbaycan xalqı da qələbənin son gününə kimi hər bir sahədə misilsiz fədakarlıq nümayiş etdirmişdi. Arxa cəbhədə Azərbaycan zəhmətkeşləri, xüsusən neftçilərimiz fasiləsiz olaraq gecə-gündüz çalışmışdılar. Cəbhəni tələb olunduğu həcmdə duru yanacaqla və digər neft məhsulları ilə təmin etmək çox məsul vəzifə kimi Azərbaycan neftçilərinin üzərinə düşmüşdü. Bir sözlə, Azərbaycan Sovet İttifaqının başlıca cəbbəxanasına çevrilmişdi. Cəbhəyə gedənlərin yerinə qadınlar və qızlar cəlb qdilmişdi. Müharibənin başlanmasından sonrakı 8 ay ərzində 16 min cəbhəçi arvadı sənaye müəssisələrində işə başlamışdı ki, onlardan 11 min nəfəri neft sənayeində çalışırdı [1, s.16]. Çətinliklərə baxmayaraq, Bakı neftçiləri bu dövrdə ümumi ölkə sənayesi tarixində ən yüksək göstəricini nümayiş etdirə bildilər. Düşmənin hərbi hissələrinin 1942-ci ilin avqust ayının sonunda Şimali Qafqaza çatması və Qroznı neft rayonunun faşist ordusu tərəfindən zəbt edilməsi Bakı neftinin müharibənin gedişində əhəmiyyətini və rolunu daha da artırdı və onu ön plana çəkdi. İkinci dünya müharibəsi illərində Baltik dənizindən Qara dənizə qədər uzanmış cəbhənin tələb etdiyi bütün benzinin 80 faizini, sürtgü yağlarının 90 faizini Azərbaycan təmin edirdi [4]. İkinci dünya müharibəsinin son mərhələsində hərbi texnikadan istifadə dəfələrlə artdığı üçün neft məhsullarına təlabat da kəskin şəkildə çoxaldı. Əgər 1942-ci ildə Sovet ordusu gündə 4-6 min ton yanacaq işlədirdisə,1944-cü ildə hücum əməliyyatları zamanı yanacağa gündəlik tələbat 40 min tona yüksəlmişdi [8, s.224].

Sovet rəhbərliyi bunu dəyərləndirərək 1942-ci il ərzində 500 neftçini SSRİ-nin orden və medalları ilə təltif etmişdi. O cümlədən də 41 nəfər yüksək mükafata - Lenin ordeninə layiq görülmüşdür. Bir sıra neft mədənləri isə Qırmızı Əmək Bayrağı ordeninə layiq görülmüşdü. Bunlar Leninneft Trestinin 11-ci mədəni, Bibiheybətneft Trestinin 4-cü mədəni və Lökbatanneft Trestinin 4-cü mədəni idi [1, s.17].

Müharibə illərində Bakının demək olar ki, bütün neft mədənlərində belə bir şüara rast gəlmək olardı: "Bakılı, unutma ki, neftə hər yerdə ehtiyac var – quruda da, havada da, suda da!". Azərbaycan neftçiləri müharibənin ağır şərtlərinə baxmayaraq cəbhəni vaxtı-vaxtında yüksək keyfiyyətli yanacaqla təmin etmək kimi taleyüklü vəzifəni böyük rəşadətlə yerinə yetirirdilər [9, s.87].

Lakin 1942-ci ildə neft sahəsində bir sıra problemlər yaranmağa başlandı. Bunun başlıca səbəbi neftçi mütəxəssislərin 40 faizəə qədərinin cəbhəyə göndərilməsi idi. Buna görə qazma işlərinin çoxu dayandırılmış, neft sənayesinə vəsait qoyuluşu aşağı düşmüşdür. Nəticədə 1942-ci ildə neft hasilatı əvvəlki illə müqayisədə kəskin şəkildə aşağə düşməyə başladı [12, c.66].

Buna baxmayaraq, neftçilər bu çətinlikləri aradan qaldırmaq üçün əzmlə çalışırdılar. Bu baxımdan SSRİ DMK bir sıra layihələr hazırlamışdı.DMK-nın Azerneftkombinatına təqdim olunmuş sərəncamda qazma işini sürətləndirmək təklif olunurdu. Bundan sonra bir neçə qazma kontoru yaradıldı. Həmin kontorlar Kirovneft, Stalinneft, Lökbatanneft, Orconikidzeneft trestlərində yaradılmışdı. Daha sonra DMK minlərlə gəncin ordudan azad edilərək neft sənayesinə gətirilməsi ilə bağlı qərar qəbul etdi. Həmin gənclərin içərisindən sonralar bir çox

məhşur qazma, tikinti-təmir ustaları yetişdi. Dövlət Müdafiə Komitəsinin neft mütəxəssisləri ilə bağlı qəbul etdiyi başqa bir qərarda onların ordu sıralarından vaxtından əvvəl tərxis olunması nəzərdə tutulurdu. Bütün bu tədbirlər nəticəsində 1943-cü ilin ilk günlərindən qazma işləri genişlənməyə başladı. Yeni ustalar meydana çıxdı. Müharibə illərində Volqaboyunda, Uralda ölkənin şərqində “İkinci Bakı” adı altında yeni neft rayonları yaradılmağa başlanmışdı. Bakı neftçiləri də təbii ki, həmin rayonların inkişafına öz töhfələrini vermişlər. Dövlət Müdafiə Komitəsi Bakı neftçilərinə təklif edirdi ki, neft hasilatı işini sürətləndirmək üçün onlar perspektivli neft rayonlarına köçsünlər. 1942-ci ilin ilk aylarında Bakının bir sıra neft trestlərinin, neft müəssisələrinin Şərqə köçürülməsi işi həyata keçirildi.

1941-1945-ci illərdə Azərbaycan neftçiləri 22 milyon tondan artıq müxtəlif neft məhsulları da istehsal etmişdilər. Həmin məhsullar içərisində çoxlu sürtkü yağı məmulatları, dizel yanacağı və s. olmuşdu. Bu illər ərzində cəbhədəki döyüş texnikasının 75-80 faizi Azərbaycan neftçilərinin səyi nəticəsində hərəkətə gətirilmişdi. Azərbaycanlı alim və mühəndislərinin səyi nəticəsində cəbhə fasilsiz şəkildə yüksək oktanlı aviasiya yanacağı və digər neft məhsulları ilə təchiz olunurdu.

Müharibənin ilk günlərindən başlayaraq Azərbaycan neftçiləri cəbhəni kifayət qədər neftlə təmin edə bilmək üçün aparılan işləri genişləndirirdilər. Neftçilər gecə-gündüz işləyirdilər. Baxmayaraq ki, bütün bu əziyyətləri çox cüzi ərzaq payı qarşılığında edirdilər. Cəbhədə olan kişiləri isə onların həyat yoldaşları, anaları, bacıları əvəz edirdi. Köhnə bakılı Nikolay Konstantinoviç tez-tez təkrar edirdi: “Əgər qadınlar olmasaydı, biz müharibədə qələbə qazana bilməzdik!” [6, s.27]. Bakı neftçilərinin, həmçinin Bakı qadınlarının göstərdiyi əzm arxiv sənədlərində, o dövrün mətbuatında dərc olunmuş materiallarda da əyani şəkildə göstərilmişdir. Bu dövrdə minlərlə azərbaycanlı qadın mədənlərdə işə qəbul olunmuşdu. İşə başlayan 13min nəfərdən 3500-ü qadın idi.Yeni işə başlamalarına baxmayaraq, qadınlar çox böyük həvəslə çalışır və düşmən üzərində qələbənin daha tez bir zamanda olmasına kömək edirdilər.

Müharibə illərində ehtiyat ixtisaslı fəhlələrin yetişdirilməsində ehtiyat əmək qüvvələri məktəbinin böyük rolu olmuşdur. Bu məktəb neft sənayesi və nəqliyyat üçün minlərlə ixtisaslı fəhlə yetişdirmişdir. Həmin fəhlələr cəbhəyə gedən işçi qüvvəsini əvəz etməli idilər. Həmin fəhlələr nəinki işçiləri əvəz etmiş, hətta onların arasından yüzlərlə yeni neft ustaları çıxmışdır. Ümumiyyətlə, istehsalalat sahəsində şöhrət qazanan ustaların çoxu məhz həmin məktəbin məzunları idi.Onlara misal olaraq məhşur neft ustaları olan Ağahüseyn Qafarov və Mirzə Bədirxanovu göstərə bilərik [6, s.30].

Bakı neftçiləri Leninqrad mühasirəyə alınan zaman da öz köməklərini əsirgəmədilər. Hər vasitə ilə mühasirədə olan Leninqrada Bakı neftinin çatdırılmasına çalışırdılar. Bu məqsədlə 1942-ci ildə Ladoqa gölünün dibindən 28 km uzunluqda benzin kəməri çəkilmişdir. Həmin benzin kəməri fasiləsiz olaraq 400 ton yanacaq ötürmək gücündə idi. Leninqrad cəbhəsini yanacaqla təmin etmək üçün iki il yarım müddətində həmin yoldan istifadə edilmişdi.

Sovet qoşunları Qafqaz uğrunda ağır döyüşlər gedişində Maykop və Qroznı neft rayonlarını itirdikdən sonra cəbhənin, döyüşən ordunun neft məhsulları ilə təchizi işi ağırlaşdı. Belə ki, bütün cəbhənin yanacaq təminatı tamamilə Bakı neftçilərinin üzərinə düşdü. Həmin dövrdə Abşeronun bütün neft mədənləri çox ağır şəraitdə işləyirdi. Məhz onların fədakar əməyi sayəsində müharibənin birinci ilində Sovet İttifaqı 33 milyon ton neft hasil etmişdi. Baxmayaraq ki, ilin əvvəlində bu mümkünsüz görünürdü. Bununla da artım 6 faiz olmuş oldu.

1942-ci ildən başlayaraq qazma işlərində bir müddət durğunluq baş verdi. Bu da həmin il üçün müharibəni çətinləşdirən səbəblərdən biri idi. 1941-ci ildə Bakıdakı bir sıra neft müəssisələri şəxsi heyəti və bütün avadanlığı ilə birlikdə ölkənin şərqində yaradılan və "İkinci Bakı" adlandırılan yeni neft rayonuna köçürülmüşdü. Bakıdakı müəssisələrin bütün avadanlığı, alətləri, qazma dəzgahları Şərqə daşınmışdır. Bu da Bakıda qazma işlərinin dayandırılması ilə nəticələndi. Bununla bağlı ilk sərəncamı 1942-ci ilin sentyabrında "Azneftkombinat" verdi. Həmin sərəncama görə 1942-ci ilin sonunda qazma trestlərinin bütün avadanlığı şərqə göndərilməli idi.

1942-ci ilin payızında Dövlət Müdafiə Komitəsi tərəfindən neft hasilatının sürətlə inkişafını təmin etmək üçün doqquz qazma idarəsi, neft müəssisələrinin idarəsi Başqırdıstan, Kuybışev, Perm, Orenburqa verildi. 1942-ci ildə Orta Asiya və Qazaxıstan bölgələrinə göndərilən sənaye müəssisələri üçün şəhərdə evakuasiya bazası tikildi [5].

Müharibənin son mərhələsində neft istehsalatında vəziyyət yenidən çətinləşmişdi. Bunun başlıca səbəbi neft çıxarması üzrə avadanlığın çatışmaması, xüsusən də təzə avadanlığın kifayət qədər olmaması, işlədilən avadanlıqların da həddindən artıq istismara görə tez-tez sıradan çıxması idi. Buna baxmayaraq, Azərbaycan neftçiləri yenə də köhnəlmiş texnikanı işlək hala salmağa, onlardan maksimum dərəcədə istifadə etməyə çalışırdılar.

Müharibə dövründə Sovet İttifaqı üçün başlıca neft məhsullarını verən Azərbaycan olmuşdu. Lakin bu dövrdə Azərbaycanda neft sənayesindəki işçilərin iş şəraiti çox ağır idi. Xüsusilə müharibənin başlanğıcı daha çətin olmuşdur. Çünki bu dövrdə demək olar ki, bütün neft emal edən zavodların maddi-texniki təchizatı dayandırılmışdı. Azərbaycan neftçiləri şəraitin ağır olmasına baxmayaraq, öz öhdəliklərini tam olaraq yerinə yetirməyə çalışırdılar. Bəzən günlərlə evə getmir, planın vaxtından əvvəl yerinə yetirilməsinə çalışırdılar. "Leninneft" trestində bir briqada 48 saat fasiləsiz çalışmışdı. Buruqlar neft verməyi dayandırdıqda işçilər evlərinə getmir, dərhal təmir işlərinə başlayırdılar. Məsələn, belə bir vəziyyətin yarandığı vaxtda operator M.Məhəmmədov bir qrup işçi ilə birlikdə bir gün ərzində fasiləsiz işləyərək buruğun fəaliyyətini bərpa etmişdi. Normalda isə bu iş 10 gündən tez başa gəlməzdi. Bərpa edilən buruqdan bir gün ərzində 60 tondan artıq neft əldə olunmuşdu [8, s.225].

Azərbaycan neft və qaz hasilatı müharibə dövründə həmin vaxta qədər görünməmiş yüksək bir səviyyəyə çatdı.

Dünya yenə Avropada böyük müharibə ilə üzləşibdir. Rusiyanın Ukraynaya hərbi təcavüzü yeni siyasi reallıqlar yaradıbdır. Böyük dövlətlər dünya düzənini yenidən dizayn etməyə çalışırlar. ABŞ başda olmaqla Qərb dünyası Rusiyanı cəzalandırmaq üçün böyük səy göstərirlər. Aparıcı güclər arasında ziddiyətlər İkinci dünya müharibəsindən sonra ilk dəfə bu qədər kəskinləşmişdir. Doğrudur, bu qanlı, on minlərlə insanın həlak olduğu, milyonlarla insanın yurd-yuvasından didərgin düşdüyü savaşı hələ dünya müharibəsi adlandırmırlar. Ancaq bu savaşda aydın görünən odur ki, Rusiyanın təcavüzü bütün dünyada pislənir və Putin rejimi sərt sanksiyalarla,embarqolarla cəzalandırılır. Rusiya-Ukrayna müharibəsi Avropanın enerji ilə, xüsusən neft və qazla təchizində ciddi problemlər yaratmışdır. 81 il il əvvəl olduğu kimi Azərbaycan yenə haqqın, ədalətin qalib gəlməsinə öz töhfəsini verməkdədir [11]. Dünyanın təmiz yanacaqla təmin olunmasına yardım edir. Bununla ölkəmiz dünyanın, o cümlədən Avropanın enerji təhlükəsizliyini dəstəkləyir, eləcə də beynəlxalq hüququn təməl prinsiplərinin qorunması uğrunda çıxış edir, ərazi bütövlüyünün, suverenliyin, demokratiya və azadlığın tərəfində olduğunu nümayiş etdirir. Azərbaycan bu mövqeyi ilə işğala, müstəqilliyin hər cür təhdidinə qarşı çıxır, sülhə, əmin-amanlığa xidmət göstərir.

## Ədəbiyyat

1. Azərbaycan tarixi. Yeddi cilddə. VII c., Bakı, Elm, 2008, 608+80 s.
2. Sadıqlı F. (2015), Bakı nefti olmasaydı... Azərbaycan qəzeti, 22 aprel. http://www.anl.az/down/meqale/azerbaycan/2015/aprel/431835.htm
3. Əliyev H.Ə. (2003), 2003-cü il fevralın 25-də Vaşinqtonda «Şərq-Qərb enerji dəhlizi reallıqdır» mövzusunda keçirilmiş beynəlxalq konfransda nitqi, “Diplomatiya aləmi”, №2, s. 24-30.
4. Azərbaycan İkinci dünya müharibəsində //https://az.wikipedia.org/wiki/ 10.06.2022
5. Bakı İkinci dünya müharibəsində //https://az.wikipedia.org/wiki/ 10.06.2022
6. Bağırzadə Ə. (1983), Qəhrəman gənclik. Bakı, Gənclik, 149 s.
7. İsrafiloğlu N. (2005), Neft və cahan savaşı. Bakı, Mütərcim, 316 s.
8. Mədətov Q. Ə. (2018), Azərbaycan SSR 1941-1945-ci illər müharibəsində. Bakı: “Turxan” NPB, 544 s.
9. Məmmədli B. (2021), İkinci Dünya müharibəsi illərində Bakı nefti Almaniyanın hərbi-strateji planlarında. “Qədim diyar” jurnalı, 24 dekabr, s.87-88.
10. Qarayev S. (2010), Azərbaycanın İkinci Dünya müharibəsində geniş iştirakı. “Respublika” qəzeti, 8 may.
11. Azərbaycan 81 il əvvəl oynadığı rolda //https://report.az/analitika, 1 iyun 2022-ci il.
12. Абасов М.Г. (1967), Баку в годы Великой Отечественной войны. Баку, Азербайджанское государственное издательство, 262 с.